## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA

## ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Gənc Alim və Tədqiqatçıların 5-ci qrant müsabiqəsinin (EİF-GAT-5-2020-3(37)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

# ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

**(Qaydalar üzrə Əlavə 16)**

Layihənin adı: **Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində milli azlıqlar fraksiyası**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **İsmayılova Aygün Vilayət qızı**
Qrantın məbləği: **35 000 manat**
Layihənin nömrəsi: **EİF-GAT-5-2020-3(37)-12/11/5-M-11**
Müqavilənin imzalanma tarixi: **30 aprel 2021-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 iyun 2021-ci il – 01 iyun 2022-ci il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

### Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| | |
|---|---|
| **1** | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
| | (burada doldurmalı)<br><br>Layihənin araşdırılması zamanı ümumiləşdirmə, analitik təhlil, müqayisə, sistemləşdirmə metodlarından istifadə edilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı tədqiqat əsərlərinə, monoqrafiyalara müraciət edilmişdir. Həmçinin, AXC parlamentinin sənədləri, “Azərbaycan” qəzetinin (1918,1919) səhifələrində dərc edilmiş məlumatlardan istifadə edilmişdir.<br>Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə - türk-müsəlman dünyasında ilk demokratik dövlət olmaqla yanaşı, dünyanın ilk demokratik əsaslarla qurulan hökumətlərindən biri olmuşdur. 1918-1920-ci illərdə mövcud olmuş AXC fəaliyyət göstərdiyi 23 ay ərzində demokratik prinsiplərə sadiq qalmışdır. Bunu AXC-nin verdiyi bütün qərarlarda, həyata keçirdiyi |

tədbirlərdən aydın görmək mümkündür. AXC-nin həyata keçirdiyi uğurlu tədbirlərdən biri və ən əhəmiyyətlisi parlamentin təsis edilməsi olmuşdur. AXC parlamenti çətin tarixi-siyasi şəraitdə qurulmuşdur. Azərbaycan Parlamenti birinci mərhələdə - 1918-ci il mayın 27-dən noyabrın 19-dək Milli Şura adı altında fəaliyyət göstərmişdir. 44 nəfər müsəlman-türk nümayəndədən ibarət Milli Şura qısa zamanda 10 iclasını keçirmiş, bir sıra mühüm tarixi qərarlar qəbul etmiş, ölkənin idarə olunması məsuliyyətini üzərinə götürmüşdür. Azərbaycan Milli Şurası iyunun 17-də fəaliyyətini müvəqqəti dayandırmaqla, 6 aydan gec olmayaraq Müəssislər Məclisi çağrılmaq şərti ilə, bütün qanunverici və icraedici hakimiyyəti Müvəqqəti hökumətə vermişdir. F.Xoyskinin rəhbərlik etdiyi hökumət mürəkkəb tarixi-siyasi şəraitdə bu çətin vəzifəni öhdəsinə götürmüş və Azərbaycanın varlığını qoruyub saxlamağa nail olmuşdur. Tomsonun onun rəhbərlik etdiyi hökumətə sonradan göstərdiyi etimad da bunun bariz nümunəsidir.

1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusu Azərbaycan xalq könüllü dəstələrinin köməyi ilə Bakını bolşevik-daşnak birləşmələrindən azad etdikdən sonra Milli hökumət sentyabrın 17-də Bakı şəhərinə köçmüş, bununla da, noyabrın 16-da Azərbaycan Milli Şurası fəaliyyətini yenidən bərpa etməyə nail olmuşdur. Milli Şuranın noyabrın 19-da keçirilmiş iclasında Azərbaycan Cümhuriyyətinin parlamenti haqqında qanun qəbul edilmiş, habelə Müəssislər Məclisinə - geniş tərkibli Azərbaycan parlamentinə seçkilər dekabr ayının 3-nə təyin edilmişdir.

Seçkilərlə bağlı qəbul edilmiş qərarda göstərilirdi ki, Azərbaycanda müxtəlif millətlər məskunlaşdığı üçün qanunvericilik orqanında bütün millətlərin nümayəndələri təmsil olunmalıdır. AXC parlamentində 120 nəfər nümayəndə olmaqla ərazisində yaşayan bütün millətlərin burada təmsil olunmaq hüquqlarını tanımışdı. Lakin öz siyasi maraqlarını vətəndaş mövqeyindən üstün tutan Rus və erməni milli şuraları bununla razılaşmaq istəmirdilər. Belə ki, noyabrın 25-də erməni və rus Milli Şuralarına AXC parlamentində təmsil olunmaları üçün müraciət edildi. Lakin ermənilər “Böyük Ermənistan” planlarını reallaşdırmaq arzusunda olduqlarından ilk növbədə parlamentdə iştirakdan imtina etdilər. Onlar erməni Milli şurasının bütün erməni xalqının mənafeyini təmsil etmək iqtidarında olmadığını əsas gətirirdilər. Həmçinin, rus Milli Şurası da Azərbaycanı “vahid və bölünməz Rusiya”nın tərkib hissəsi hesab etdiklərindən imtina etdilər və bir sıra tələblər irəli sürmüşdülər. Bu tələblərə görə AXC Rusiyanın bütövlüyünü, Ufadakı Kolçakın rəhbərlik etdiyi hökuməti tanımalarını tələb edirdi. Tarixdən məlumdur ki, qərb dövlətləri Rusiyadakı siyasi vəziyyətdə bolşevik Rusiyasına qarşı ağqvardiyaçı qüvvələri dəstəkləmişdir. Təsadüfi deyil ki, Tomsonun rəhbərlik etdiyi ingilislər Bakıya gələndə də müttəfiqi Rusiyanı dəstəklədiyini inkar etməmiş, yeni yaranmış AXC hökumətini ciddi qəbul etməmişdi. Buna baxmayaraq, Rus Milli Şurasının tələbləri belə Tomsona xoş gəlmədi. Bu ilk növbədə Ufada yaranmış qondarma hökumətin hansı mənsəbə qulluq etdiyinin aydın olmamasından irəli gəlirdi.

AXC hökuməti də Rus milli Şurasının tələblərini rədd etdi və Azərbaycanda yaşayan rusları parlamentdə təmsil etmək üçün yalnız ruslar AXC parlamentində iştirak edə bilərlər. Hadisələrin sonrakı gedişi də süut etdi ki, sözügedən rus milli şurası AXC vətəndaşı olan rusları təmsil etmək iqtidarında deyil. Belə ki, həmin şuranın içərisindən bir qrup şəxs ayrılaraq “Rus-slavyan cəmiyyəti”ni yaratdılar və parlamentdə iştirak üçün M. Ə. Rəsulzadəyə müraciət etdilər. Nəticədə AXC parlamentində 5 deputat yeri bu cəmiyyət üçün ayrılmışdır. Azərbaycanda yaşayan rus əhalinin təzyiqini nəzərə alan Rus Milli şurası da 1919-cu ilin yanvarında parlamentə qatılmaq məcburiyyətində qalmışdır. Qeyd edək ki, rus və erməni şuraları müttəfiq qoşunların Bakıdakı komandanı general Tomsonla görüşərək parlamentin açılmasına bacardıqları qədər mane olmağa çalışırdılar. Təsadüfi deyil ki, parlamentin açılışı dekabrın 3-ə planlaşdırılsa da, dekabrın 7-də mümkün olmuşdur.

B.Britaniya baş qərargah rəisi S. Stoks mayor Rolansa göndərdiyi məktubda tələb edirdi ki, koalision hökumət müttəfiqlər tərəfindən tanına kimi parlament iclasıının açılması qadağan edilsin. Lakin AXC hökuməti qətiyyətlə Müəssisələr Məclisi çağırılana kimi parlamenti və AXC hökumətinin fəaliyyətini hüquqi və faktiki baxımdan əsaslandırmış oldu. Nəticədə Tomson Xoyskinin rəhbərlik etdiyi hökumətə etimad göstərmək məcburiyyətində qaldı. Belə ki, Tomson Xoyski ilə görüşü barədə Londona göndərdiyi məktubda yazırdı: “O, ağıllı adamdır, hüquqşünasdır və öz bacarığı ilə Qafqazda bizə məlum olan bütün əvvəlki dövlət quranlardan

daha qabil olan dövlət qurumu yaratmışdır”.
Xoyskinin Tomsonla gedən müzakirələri zamanı o, hökumətin parlament yolu ilə təşkilini əsaslandırmış və nəticədə Tomson AXC-nin daxili işlərinə qarışmayacağını bildirmişdir. Beləliklə, 1918-ci ilin dekabrın 7-də H.Z. Tağıyevin qızlar məktəbinin binasında AXC parlamenti ilk iclasını keçirərək fəaliyyətə başladı. Parlamentdə 120 nəfər deputatın iştirakınəzərdə tutulsa da 96 nəfərlə ilk işinə başlamış oldu. Yeni formalaşdırılacaq parlament ölkə əhalisinin hər 24 min nəfərinə 1 nəfər nümayəndə nəzərdə tutulurdu. Lakin sayları 24 mindən az olan milli azlıqlar da Cümhuriyyət parlamentində təmsil olunmuşdur. Milli Şuranın 19 noyabr 1918-ci il tarixli iclasının qərarına əsasən, 1917-ci ilin sonlarında Ümumrusiya Müəssislər Məclisinə seçilmiş 44 nəfər türk-müsəlman nümayəndə də birbaşa yeni yaradılacaq parlamentin tərkibinə daxil edilmişdir.
Nəticədə nəzərdə tutulmuş 120 deputat içərisində 80 yer müsəlmanlara, 21 yer ermənilərə, 10 yer ruslara verilmiş, digər Azərbaycanda yaşayan xalqların nümayəndələri də parlamentdə təmsil olunmuşdur. Rus, erməni, gürcülərlə yanaşı sayca azlıq təşkil edən millətlərin nümayəndələri də - polyak, alman, yəhudi və ukraynalının hərəsindən bir nəfər olmaqla Cümhuriyyət parlamentində iştirak etmişdilər. Milli azlıqların nümayəndələri – polyak Stanislav Vonsoviç, ukraynalı Vasim Kujim, alman Lorens Yakovlev Kun və yəhudi Moisey Quxman parlamentdə Milli azlıqlar fraksiyasında birləşmişlər.

Milli azlıq fraksiyasına daxil olan deputatlardan biri də alman xalqını təmsil edən Lorens Yakovlev Kun idi. O, 1884-cü ildə Yelenendorfda anadan olmuşdu. L.Y. Kun 1915-ci ildə Benkendorfun neft mədənlərinin idarə edicisi və Yelenendorf Beynəlxalq Alman komitəsinin üzvü olmuşdur. Parlamentdə aqrar komissiyanın üzvü olan Kun aqrar qanunvericiliyin müzakirəsində iştirak etmişdir. Bu dövrdə koloniyalar barəsində Azərbaycan hökumətinin siyasətini almanlar razılıqla qarşılayırdılar. Belə ki, sürgünə göndərilmiş alman ailələri Azərbaycana, doğma evlərinə geri qaytarılırdı.

Yelenendorfda kənd komitəsinin sədri parlament deputatının qardaşı – Robert Kun, onun köməkçisi isə Frisi Fridrix Kox idi. Kənd idarəsi ilə hökumət arasında mərkəzi hakimiyyətin nümayəndələri tərəfindən sıx əlaqələr qurulurdu. Azərbaycan hökuməti Alman milli komitəsinin təhsil, mədəniyyət və din sahəsində fəaliyyətini dəstəkləyirdi. Bir çox Alman ziyalılarının nümayəndələri azərbaycanlı həmkarları ilə birgə ali məktəblər, neft sənayesi və tibb sahəsinin təşkilində yaxından iştirak edirdilər.

1919-cu ildə Kimmerlin başçılığı ilə bir qrup bolşevik almanlar hökumətə qarşı çıxışlar etmiş, təxribat törətməyə cəhd etmişdilər. Bu barədə Robert Kun Əkisinqilabla Mübarizə Təşkilatının sədr müavini Mahmud Səfikürdskiyə məlumat verərək baş vermiş pozuculuq cəhdlərinin və almanlar arasında anarxiya yaradan Kimmerə qarşı mübarizədə kömək istəmişdir. Bu zaman AXC Zəngəzurda ermənilərin hücumlarına qarşı mübarizə apardıqları halda almanlara da bacardığı qədər kömək etməyə çalışmışdır.

9 iyun 1919-cu ildə almanlar Gəncə qubernatorunun razılığı ilə Yelenendorf koloniyasının əsasının qoyulmasının yüzilliyini təntənəli surətdə qeyd etmişlər. Bu yubiley münasibəti ilə Robert Yakov Kuna parlament adından təbrik teleqramı göndərilmişdir: "Azərbaycan Respublikasının parlamenti Yelenendorf koloniyasının yüzilliyini təbrik edir və alman xalqına tərəqqi, rifah arzu edir”. Yubileyin qeyd olunması haqqında sənədli film çəkilmiş, almanların köçürülmə tarixi barədə tədqiqatlar aparılaraq, broşuralar çap edilmişdir. Bəzi məlumatlara görə bu film Sovet hakimiyyətinin ilk illərində kənd arxivlərindən çıxarılaraq Almaniyaya aparılmışdır. Alman tədqiqatçısı Georq Leybrandta görə, Cümhuriyyət dövründə Azərbaycandakı almanların tarixinə həsr olunmuş kitab çıxarılması da nəzərdə tutulmuş və bunun üçün materiallar da toplanmışdır. Lakin sovet işğalı bu işin yarımçıq qoyulmasına səbəb olmuşdur. AXC hökuməti ərazisində yaşayan xalqların milli rifahı üçün onların mədəniyyətinin, təhsilinin inkişafına, ictimai birliklərinin yaradılmasına şərait yaradırdı. Lorens Yakovlev Kun Azərbaycan almanları adından çıxış edərkən bu barədə qeyd edirdi: “Biz almanlar AXC demokratikliyi sayəsində öz milliliyimizi qoruyub saxlaya bilirik və gələcəyə ümidlə baxırıq”. L. Y. Kun 1938-ci ildə SSRİ XDİK tərəfindən həbs edilmiş və 1942-ci ildə sürgündə vəfat etmişdir.

AXC parlamentindəki Milli azlıq fraksiyasının üzvlərindən biri də ukraynalı nümayəndə Vasil Nikolayeviç Kujim idi. O, 1884-cü ildə Poltava ərazisindəki Lubni şəhərində anadan

olmuşdur. XIX-XX əsrin əvvəllərində mövcud olmuş qromadaçılardan idi. Qromadalar da bəhs etdiyimiz dövrdə milli-azadlıq hərəkatına xidmət məqsədilə yaradılmışdı. 1918-ci ildə Bakıda olan V. Kujim buradakı Ukrayna milli komitəsinin üzvü idi və öz həmyerlilərinə maddi və mənəvi köməklik göstərirdi. Malyariya epidemiyası zamanı o, Amerika Yardım komitəsi vasitəsilə dərmanlar əldə etmiş və bununla da minlərlə ukraynalının həyatını xilas etmişdi.

AXC parlamentində fəaliyyətə başladıqdan sonra burada yaşayan ukraynalılara daha çox köməklik göstərmək və onların problemlərini rəsmi şəkildə bəyan etmək hüququ əldə etmiş oldu. Eyni zamanda V. Kujim rəsmi Ukrayna rəhbərliyi ilə AXC hökuməti arasında diplomatik əlaqələrin qurulmasında müsbət rol oynadı. Ukrayna qromadaçılarından olan və fövqaladə misisiyasının rəhbəri İvan Kraçkovski ilə AXC Xarici İşlər nazirliyinin arasında V. Kujimin təşkilatçılığı ilə danışıqlar olmuş və 1920-ci il yanvarın 1-də Bakıda Ukrayna konsulluğunun açılması barədə razılıq əldə edilmişdir. Həmin ilin mart ayından V. Kujim Ukraynaya rəsmi səfərə getmiş, lakin aprel işğalı səbəbi ilə Azərbaycana qayıtmamışdır. Praqa və Berlində müxtəlif qəzet və jurnallarda çalışmış, 1958-ci ildə Bavariyada vəfat etmişdir.

Fevral inqilabından sonra Rusiya imperiyasının tərkibinə daxil olan xalqların təşkilatlanması daha da sürətlənmişdi. Bunlardan biri də Azərbaycanda yaşayan yəhudilərin 3 dekabr 1917-ci ildə yaratdığı "Bakı Yəhudi milli komitəsi” idi. Komitənin sədri Moisey Arkadyeviç Quxman idi. Bütün mədəni - maarif və xeyriyyə müəssisələri bu milli komitənin tabeliyində olmuşdur. Həmin komitə fraksiyaya namizəd kimi bunları təqdim etmişdilər: sionistlər, bundçular, partiyasız demokratik qrup, xalqçılıq (folksparti), yəhudi sosial-demokratları (Poaley Sion), millətçi sionistlər (Siere-Sion) və ortodoks fraksiyaları. Azərbaycan parlamentində həmin Quxman milli azlıq fraksiyasında öz millətini təmsil etmişdi. Bundçular isə Blumşteynin rəhbərliyi ilə parlamentdə təmsil olundular. M.A. Quxmanın parlamentdə milli azlıq fraksiyasına deputat seçilməsindən sonra yəhudi milləti ictimai sahələrdə daha aktiv şəkildə fəaliyyət göstərməyə, öz adət-ənənələrini, mədəniyyətlərini təmsil etməyə başladılar. Belə ki, Leon Peres adına yəhudi cəmiyyəti mövcud idi ki, bu cəmiyyətin 1919-cu ildə “Canlı” qəzetinin nəşrinə başlandı. Eləcə də Yəhudi xalq musiqi cəmiyyətinin Bakı bölməsi, Yəhudi xalq klubu olan “Qerslya”, Yəhudi xeyriyyə cəmiyyəti - "Ezras Axim" formalaşdırıldı. Bu cəmiyyət Q.O.Benenson cəmiyyətinə verilmiş yəhudi əlillər evinin salınmasını həyata keçirdi. Yəhudilərin qeyd edilən cəmiyyət və qurumları ingilis komandanlığının və xüsusi şəxslərin himayəsindən alınaraq özlərinin ixtiyarına verilmişdi. Bundan başqa, Bakıda növbəti qəzet və jurnallar çıxarılırdı: İ.Y.Qlaxenhauzun redaktorluğu ilə “Bakı sözü” qəzeti, “Qafqaz voxenblatı” jurnalı, Y.S.Fridlandın redaktorluğu ilə "Yəhudi iradəsi", V.S.Veynşal redaktorluğu ilə "Fələstin", "Qafqaz yəhudi xəbərləri" nəşr edilmişdir. Sırf yəhudi təşkilatları və dövri nəşrləri ilə yanaşı, yəhudi icmasının nümayəndələri paytaxtın bir sıra ictimai təşkilatlarında da fəal iştirak etmişlər. Onların arasında "Bakı şəhər mərkəzi ev komitəsi" (Центродом) də var idi.

AXC parlamentində milli azlıq fraksiyasının üzvlərindən biri də polyak xalqını təmsil edən Stanislav Aleksandroviç Vonsoviç idi. O, parlamentdə Qanunvericilik komissiyasının katibi kimi fəaliyyət göstərmişdir. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətində PR-20193 saylı istintaq işindən məlum olur ki, S. Vonsoviç 1920-ci il avqustun 14-də həbs edilmiş, həmin ilin dekabrında həbsdən azad edilmişdir. Polyakların Cümhuriyyət parlamementində təmsil olunması ilə polyak xalqı ilə azərbaycanlılar və rəsmi Azərbaycan hökuməti arasında əlaqələr güclənməklə bərabər, onların Azərbaycanda rəsmi təmsil oluunmaq hüququ təmin edilmiş oldu. Bu da onlara öz problemlərini rəsmi tribunadan ifadə etmək şansı vermiş oldu.

Bu fraksiyanın üzvləri qeyd etdiyimiz millətin nümayəndələrindən təşkil olunsa da, parlamentin tərkibinə daxil olan digər fraksiyalardan sonradan üç nəfər deputat daxil olmuşdur. Bu deputatlar: Dubrovski, Vladimir Ollonqren və S. M. Mixaylov idi. Bu deputatlardan biri Vladimir Konstantin Ollonqren əvvəlcə Slavyan-rus cəmiyyəti fraksiyasına daxil olmuş, sonradan Milli azlıqlar fraksiyasına keçmişdir. II Nikolayın yaxın dostu olan Vladimir Ollonqren 1916-1917-ci illərdə Bakı şəhər idarə rəisinin müavini vəzifəsində çalışmış, Slavyan-rus cəmiyyətinin üzvü kimi 1918-ci ilin dekabrında parlamentin tərkibinə qatılmışdır. 1919-cu ildən V.Ollonqren Milli azlıqlar fraksiyasına daxil olmuşdur.

Milli azlıqlar fraksiyasına daxil olan deputatlar sonrakı hökumət kabinetlərinin işində də aktiv iştirak etmişdilər. Cümhuriyyət hökuməti demokratik dəyərləri rəhbər tutaraq, parlamentdə təmsil olunan millətlərin nümayəndələrini hökumət işlərindən uzaqda saxlamamış, əksinə, daha aktiv və zəruri məsələlərin həlli və həyata keçirilməsi işlərinə cəlb etmişdir. Buna misal olaraq, parlamentdə fəaliyyət göstərən "Maliyyə komissiyasında" yəhudilərdən Quxman, "Fəhlə komissiyası"nın işində gürcü nümayəndəsi Tsixakaya, Məclisi-müəssisan hazırlığı komissiyasının işində isə polyak nümayəndəsi Vonsoviçin iştirakını göstərə bilərik. Xalq səhiyyə naziri Yevsey Gindes, ərzaq naziri Konstantin Lizqar, maliyyə nazirinin müavini və dövlət bankını idarə edən M. Abezhauz etnik mənsubiyyətinə görə yəhudi idilər, bu, Cümhuriyyətin vətəndaşı kimi siyasi hüquqlara sahib və bu hüquqlardan geniş istifadə edərək hökumətin işində fəaliyyət göstərmələrinə mane olmurdu. Müqayisə üçün qeyd edək ki, dünyanın inkişaf etmiş, daha uzun ömürlü və təkmil siyasi sistemlərinə malik dövlətlərində antisemitizm tüğyan edir, yəhudilər etnik mənsubiyyətinə görə sıxışdırılırdı. Azərbaycanda isə vəziyyət əksinə idi. AXC yeni və çətin tarixi-siyasi şəraitdə yaransa da, vətəndaşlarının hüquq və azadlıqlarını təmin etməyi bacarmışdı.
Parlementin Milli azlıqlar fraksiyasında almanları təmsil edən L. Y. Kun aqrar komissiyanın üzvü kimi qanunvericilik layihələrinin hazırlanmasında və müzakirəsində yaxından iştirak etmişdir.
Polyakları AXC parlamentində təmsil edən S. Vonsoviç Qanunvericilik komissiyasının katibi kimi fəaliyyət göstərmişdir. Bundan başqa, o, parlamentdəki seçki və nizamnamə komissiyalarının tərkibində də çalışmışdır. Parlamentin S. Vonsoviçdən başqa da polyak üzvü var idi. Bu, parlamentdəki digər Slavyan-rus cəmiyyıti fraksiyasının tərkibinə daxil olan Viktor Klenevski idi. O, V hökumət kabinetində Sosial təminat naziri kimi fəaliyyət göstərmişdir.
Azərbaycan hökuməti tədris işini milliləşdirərkən azsaylı xalqların uşaqlarının da mənafeyini nəzərə almışdı. Hökumətin 1918-ci il 7 sentyabr tarixli qərarı ilə sinifdə başqa millətdən olan şagirdlərin sayı 10 nəfərdən az olmadıqda onlara öz dillərində ilahiyyat və ana dili dərsləri keçilməli idi. Bu da Azərbaycan vətəndaşı olan hər bir şəxsin vətəndaş kimi hüquq və azadlıqlarının təmin edilməsini, onların öz mədəniyyətlərini qoruyub-saxlamalarına hüquqi baxımdan şərait yaradıldığının bir sübutudur. Halbuki, dünyanın inkişaf etmiş və əvvəllər parlament təcrübəsinə malik olmuş, demokratik dəyərlərin Azərbaycandan da tez formalaşdırıldığı dövlətlərdə milli azlıqlarla olan problemlər hal-hazırda da qalmaqdadır. Azərbaycan Respublikası da Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi bu ənənəyə sadiq qalaraq, öz vətəndaşlarına irqindən, milliyyətindən, dinindən, sosial mövqeyindən asılı olmayaraq bərabər hüquqlarını təmin edir. "İstiqlal bəyannaməsi"ndə qeyd olunan bu müddəa bu gün də müstəqil Azərbaycan Respublikasının qanunvericiliyində öz əksini tapmışdır. Belə ki, Cümhuriyyətin təsisat aktı olan "İstiqlal bəyannaməsi"nin müddəalarında qeyd edilir ki, Azərbaycan Xalq Cümhuriyyəti silkindən, cinsindən, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarının siyasi hüquqlarının təminatçısıdır (IV maddə). Həmçinin, bu tarixi-siyasi və hüquqi əhəmiyyətinə görə seçilən sənəddə vurğulanır ki, AXC ərazisində yaşayan bütün millətlərə sərbəst inkişafları üçün geniş şərait yaradır (V maddə). AXC-nin fəaliyyətinə diqqət yetirdikdə, AXC hökumətinin bu müddəaları tətbiq etdiyinin şahidi oluruq.
I Dünya müharibəsi başa çatandan sonra dünyanın bir çox yerlərində demokratik ideyalar praktiki olaraq həyata keçirilməyə başlayır. Parlament təcrübəsinə malik olan dövlətlərdə demokratikləşmə yeni mahiyyət kəsb edir. Bu yolda fərqli inkişafa doğru yeni addımlar atılır. Məsələn İngiltərə parlamentində qadınlara seçki hüququnun verilməsi kimi addımları nümunə göstərə bilərik. Halbuki, tarixə nəzər salsaq, İngiltərədə parlament 1265-ci ildən formalaşmışdır. Azərbaycan isə bu vaxta qədər parlament təcrübəsinə malik deyildi və ilk dəfə yaradılmış Cümhuriyyət parlamentində demokratik prinsiplər zəmin olmuşdur. Parlamentin yaradılması ilə bağlı verilən qərarlardan biri də qadınların da kişilərlə bərabər seçki hüququna sahib olması idi. "İstiqlal bəyannaməsi"ndə qeyd etdiyi kimi, milliyyətindən, dinindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına bərabər hüquqlar vəd edir və bunu praktiki olaraq həyata keçirirdi. Nümunə üçün qeyd edək ki, qadınlara seçki hüququ Fransada 1944-cü ildə, İsveçrədə isə praktiki olaraq 1989-cu ildə baş tutmuşdur. Qeyd edək ki, Cümhuriyyət parlamentinə seçki ilə

| | |
|---|---|
| | bağlı qadınlara bu hüququn verilməsi və hüquqi baxımdan tanınması nəinki Azərbaycanda, Şərqdə və türk-müsəlman dünyasında ilk dəfə olaraq həyata keçirilmişdir.<br>Dövrün tarixinə nəzər salsaq, məlum olur ki, dünyanın əksər bölgəsində demokratik təsisatların olmadığı, insan hüquq və azadlıqlarının mövcud olduğu, Birinci Dünya müharibəsindən sonra ksenofobiya, antisemitizmin geniş vüsət aldığı bir vaxtda AXC demokratik dəyərlərə sadiq qalmış, bütün addımlarını da məhz bu prinsiplər üzərindən həyata keçirmişdir. AXC parlamentinin tərkibi bunu bir daha sübuta yetirir.<br>Yuxarıda qeyd olunanları nəzərə alaraq, deyə bilərik ki, AXC yarandığı gündən həm hüquqi, həm də faktiki olaraq öz ərazisində yaşayan bütün millətlərə tolerant yanaşmış, onların bərabər hüquq və azadlıqlarla təmin etmişdir. Bu gün də müstəqil Azərbaycan Respublikası da bu ənənəyə sadiq qalır. Azərbaycan ərazisində müxtəlif millətlərin və ölkələrin həm rəsmi diplomatik orqanları həm də mədəni qurumları fəaliyyəst göstərməkdədirlər. Müasir dövrdə beynəlxalq aləmə nəzər yetirsək, dünyanın bir sıra ölkələrində terror, milli və dini fərqlərə görə anlaşılmazlıqlar baş verdiyi halda, AXC-nin varisi olan Azərbaycan Respublikası demokratik ənənələrə sadiq qalaraq, hüquqi və faktiki baxımdan ərazisində yaşayan bütün vətəndaşlara və qeyri-azərbaycanlılara din, dil, cins, milliyət, sinif fərqi qoymadan eyni hüquq və azadlıqlar vermişdir. |
| **2** | Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində) |
| | *(burada doldurmalı)* |

1. **Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri**

| | |
|---|---|
| **1** | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |
| | *(burada doldurmalı)*<br><br>Dünyanın bir çoxsiyasi və hüquqi təşkilatlarının, insan hüquqları üzrə doktrinaların mövcud olmadığı bir zamanda AXC vətəndaşlarına hüquq bərabərliyini təmin etməyi bacarmışdır. Bu gün dünyada dünyanın inkişaf etmiş demokratik dövlətlərində milli azlıqların hüquqlarının pozulduğu, irqçiliyin,dini ekstremizmin müşahidə olunduğu bir zamanda Azərbaycan Respublikası AXC-nin milli varisi kimi demokratik ənənələrə sadiq qalır. Cümhuriyyətimiz 23 ay yaşadığı müddət ərzində demokratik ənənələrə sadiq qalaraq mütərəqqi addımlar atmışdır ki, bu gün də dünyada nümunə hesab edilməlidir. AXC parlamentində milli azlıqların təmsil olunması Cümhuriyyət hökumətinin və onun qanunverici orqanının demokratik prinsiplər üzərində qurulduğunu bir daha sübut edir. Bu da bir dövlət ərazisində yaşayan müxtəlif irqə, dinə, millətə məxsus olan vətəndaşların bərabərhüquqlu yaşamalarının, dövlətin siyasətində də bu tolerantlığın gözlənilməsinin aktuallığı baxımından bu gün də öz əhəmiyyətini |

saxlamaqdadır. Elmi yenilik ondan ibarətdir ki, ilk dəfə mövzu bütöv şəkildə araşdırılmışdır. Belə ki, Cümhuriyyətlə bağlı bir çox tədqiqat əsərləri olsa da, Milli azlıqlar fraksiyası problematik olaraq araşdırılmamışdır. Odur ki, tariximizin şanlı səhifəsini təşkil edən Cümhuriyyətimizin demokratik dəyərlərin əsasını qoyan bir dövlət quruculuğunu öyrənmək, düzgün tədqiq edib tanıtmaq bu gün də aktual məsələlərdən biridir. Çünki AXC hökuməti yalnız Şərqin və türk-müsəlman dünyasının deyil, dünyanın demokratik prinsiplərlə formalaşıb fəaliyyət göstərən dövlətlərindən biri olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti çətin tarixi-siyasi şəraitdə yaransa da, demokratik prinsiplər üzərində qurulmuş, insan hüquq və azadlıqlarının qorunması və təmin edilməsi ilə bağlı bütün demokratik normaları tətbiq etmişdir.

Layihə nəticəsində əldə edilən fakt və materiallar AXC tarixinin araşdırılmasında, bu səpkidə bir sıra elmi əsərlərin yazılmasında, müxtəlif təhsil və elm mərkəzlərində mühazirə, çıxışlarda istifadə oluna bilər. Eyni zamanda, parlament tarixinin öyrənilməsində də tətbiq oluna bilər. Bundan başqa, AXC parlamentinin demokratik prinsiplər üzərində qurulması demokratik dəyərlərin təbliği nöqteyinəzərindən nümunə ola bilər. Demokratik təsisatlar və parlament idarəçiliyi baxımından konsepsiya və layihələrin hazırlanmasında istifadə oluna bilər.

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**
**Quliyeva Mülayim Sahib qızı**

_______________

*(imza)*
*“ __”* ________ 20_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
**İsmayılova Aygün Vilayət qızı**

_______________

*(imza)*
*“ __”* ________ 20_ -ci il

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun**
**Gənc Alim və Tədqiqatçıların 5-ci qrant müsabiqəsinin**
**(EİF-GAT-5-2020-3(37)) qalibi olmuş**
**layihənin yerinə yetirilməsi üzrə**

## ALINMIŞ ELMİ MƏHSUL HAQQINDA MƏLUMAT
**(Qaydalar üzrə Əlavə 17)**

Layihənin adı: **Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində milli azlıqlar fraksiyası**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **İsmayılova Aygün Vilayət qızı**
Qrantın məbləği: **35 000 manat**
Layihənin nömrəsi: **EİF-GAT-5-2020-3(37)-12/11/5-M-11**
Müqavilənin imzalanma tarixi: **30 aprel 2021-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 iyun 2021-ci il – 01 iyun 2022-ci il**

Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

### 1. Elmi əsərlər (sayı)

| № | Tamlıq dərəcəsi / Elmi məhsulun növü | Dərc olunmuş | Çapa qəbul olunmuş və ya çapda olan | Çapa göndərilmiş |
|---|---|---|---|---|
| 1. | Monoqrafiyalar<br><br>həmçinin, xaricdə çap olunmuş | | Parliament of the multinational Azerbaijan Democratic Republic | |
| | | | | |
| 2. | Məqalələr | | | |
| | | | | |

| | | | | |
|---|---|---|---|---|
| | həmçinin xarici nəşrlərdə | | | |
| | | | | |
| 3. | Konfrans materiallarında məqalələr<br><br>O cümlədən, beynəlxalq konfras materiallarında | Representation of National Minorities in the Parliament of the Azerbaijan Democratic Republic<br><br>The Pearl of democracy of the East - Parliament of the Azerbaijan Democratic Republic | | |
| 4. | Məruzələrin tezisləri | | | |
| | həmçinin, beynəlxalq tədbirlərin toplusunda | | | |
| 5. | Digər (icmal, atlas, kataloq və s.) | | | |

## 2. İxtira və patentlər (sayı)

| № | Elmi məhsulun növü | Alınmış | Verilmiş | Ərizəsi verilmiş |
|---|---|---|---|---|
| 1. | Patent, patent almaq üçün ərizə | | | |
| 2. | İxtira | | | |
| 3. | Səmərələşdirici təklif | | | |

## 3. Elmi tədbirlərdə məruzələr (sayı)

| № | Tədbirin adı (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.) | Tədbirin kateqoriyası (ölkədaxili, regional, beynəlxalq) | Məruzənin növü (plenar, dəvətli, şifahi, divar) | Sayı |
|---|---|---|---|---|
| 1. | 1 st International Scientific and Practical Conference «Progressive Science and Achievements» (September 26-28, 2021). Doha, Qatar) | Beynəlxalq | plenar | 1 |
| 2. | III International Scientific and Practical Conference concepts for the development of society`s scientific potential held on May 19-20.2022 in Prague) | Beynəlxalq | plenar | 1 |
| 3. | Azərbaycan Respublikası | Ölkədaxili | şifahi | 1 |

| | | | | |
|---|---|---|---|---|
| | Prezidenti yanında Elmin İnkişafı Fondunun ADA universitetinin əməkdaşları üçün təşkil etdiyi tədbirdə iştirak (avqust, 2021) | | | |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**
**Quliyeva Mülayim Sahib qızı**

_________________
*(imza)*
" __" ________ 20_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
**İsmayılova Aygün Vilayət qızı**

________________
*(imza)*
" __" ________ 20_-ci il

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
# ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun**
**Gənc Alim və Tədqiqatçıların 5-ci qrant müsabiqəsinin**
**(EİF-GAT-5-2020-3(37)) qalibi olmuş**
**layihənin yerinə yetirilməsi üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində milli azlıqlar fraksiyası**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **İsmayılova Aygün Vilayət qızı**
Qrantın məbləği: **35 000 manat**
Layihənin nömrəsi: **EİF-GAT-5-2020-3(37)-12/11/5-M-11**
Müqavilənin imzalanma tarixi: **30 aprel 2021-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **12 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 iyun 2021-ci il – 01 iyun 2022-ci il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| 1 | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
|---|---|
| | Layihənin araşdırılması zamanı ümumiləşdirmə, analitik təhlil, müqayisə, sistemləşdirmə metodlarından istifadə edilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı tədqiqat əsərlərinə, monoqrafiyalara müraciət edilmişdir. Həmçinin, AXC parlamentinin sənədləri, “Azərbaycan” qəzetinin (1918,1919) səhifələrində dərc edilmiş məlumatlardan istifadə edilmişdir.<br>Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə - türk-müsəlman dünyasında ilk demokratik dövlət olmaqla yanaşı, dünyanın ilk demokratik əsaslarla qurulan hökumətlərindən biri olmuşdur. 1918-1920-ci illərdə mövcud olmuş AXC fəaliyyət göstərdiyi 23 ay ərzində demokratik prinsiplərə sadiq qalmışdır. Bunu AXC-nin verdiyi bütün qərarlarda, həyata keçirdiyi tədbirlərdən aydın görmək mümkündür. AXC-nin həyata keçirdiyi uğurlu tədbirlərdən biri və ən əhəmiyyətlisi parlamentin təsis edilməsi olmuşdur. AXC parlamenti çətin tarixi-siyasi şəraitdə qurulmuşdur. Azərbaycan Parlamenti birinci mərhələdə - 1918-ci il mayın 27-dən noyabrın 19-dək Milli Şura adı altında fəaliyyət göstərmişdir. 44 nəfər müsəlman-türk nümayəndədən ibarət Milli Şura qısa zamanda 10 iclasını keçirmiş, bir sıra mühüm tarixi qərarlar qəbul etmiş, ölkənin idarə olunması məsuliyyətini üzərinə götürmüşdür. Azərbaycan Milli Şurası iyunun 17-də fəaliyyətini müvəqqəti dayandırmaqla, 6 aydan gec olmayaraq Müəssislər Məclisi çağrılmaq şərti ilə, bütün qanunverici |

və icraedici hakimiyyəti Müvəqqəti hökumətə vermişdir. F.Xoyskinin rəhbərlik etdiyi hökumət mürəkkəb tarixi-siyasi şəraitdə bu çətin vəzifəni öhdəsinə götürmüş və Azərbaycanın varlığını qoruyub saxlamağa nail olmuşdur. Tomsonun onun rəhbərlik etdiyi hökumətə sonradan göstərdiyi etimad da bunun bariz nümunəsidir.

1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusu Azərbaycan xalq könüllü dəstələrinin köməyi ilə Bakını bolşevik-daşnak birləşmələrindən azad etdikdən sonra Milli hökumət sentyabrın 17-də Bakı şəhərinə köçmüş, bununla da, noyabrın 16-da Azərbaycan Milli Şurası fəaliyyətini yenidən bərpa etməyə nail olmuşdur. Milli Şuranın noyabrın 19-da keçirilmiş iclasında Azərbaycan Cümhuriyyətinin parlamenti haqqında qanun qəbul edilmiş, habelə Müəssislər Məclisinə - geniş tərkibli Azərbaycan parlamentinə seçkilər dekabr ayının 3-nə təyin edilmişdir.

Seçkilərlə bağlı qəbul edilmiş qərarda göstərilirdi ki, Azərbaycanda müxtəlif millətlər məskunlaşdığı üçün qanunvericilik orqanında bütün millətlərin nümayəndələri təmsil olunmalıdır. AXC parlamentində 120 nəfər nümayəndə olmaqla ərazisində yaşayan bütün millətlərin burada təmsil olunmaq hüquqlarını tanımışdı. Lakin öz siyasi maraqlarını vətəndaş mövqeyindən üstün tutan Rus və erməni milli şuraları bununla razılaşmaq istəmirdilər. Belə ki, noyabrın 25-də erməni və rus Milli Şuralarına AXC parlamentində təmsil olunmaları üçün müraciət edildi. Lakin ermənilər "Böyük Ermənistan" planlarını reallaşdırmaq arzusunda olduqlarından ilk növbədə parlamentdə iştirakdan imtina etdilər. Onlar erməni Milli şurasının bütün erməni xalqının mənafeyini təmsil etmək iqtidarında olmadığını əsas gətirirdilər. Həmçinin, rus Milli Şurası da Azərbaycanı "vahid və bölünməz Rusiya"nın tərkib hissəsi hesab etdiklərindən imtina etdilər və bir sıra tələblər irəli sürmüşdülər. Bu tələblərə görə AXC Rusiyanın bütövlüyünü, Ufadakı Kolçakın rəhbərlik etdiyi hökuməti tanımalarını tələb edirdi. Tarixdən məlumdur ki, qərb dövlətləri Rusiyadakı siyasi vəziyyətdə bolşevik Rusiyasına qarşı ağqvardiyaçı qüvvələri dəstəkləmişdir. Təsadüfi deyil ki, Tomsonun rəhbərlik etdiyi ingilislər Bakıya gələndə də müttəfiqi Rusiyanı dəstəklədiyini inkar etməmiş, yeni yaranmış AXC hökumətini ciddi qəbul etməmişdi. Buna baxmayaraq, Rus Milli Şurasının tələbləri belə Tomsona xoş gəlmədi. Bu ilk növbədə Ufada yaranmış qondarma hökumətin hansı mənsəbə qulluq etdiyinin aydın olmamasından irəli gəlirdi.

AXC hökuməti də Rus milli Şurasının tələblərini rədd etdi və Azərbaycanda yaşayan rusları parlamentdə təmsil etmək üçün yalnız ruslar AXC parlamentində iştirak edə bilərlər. Hadisələrin sonrakı gedişi də süut etdi ki, sözügedən rus milli şurası AXC vətəndaşı olan rusları təmsil etmək iqtidarında deyil. Belə ki, həmin şuranın içərisindən bir qrup şəxs ayrılaraq "Rus-slavyan cəmiyyəti"ni yaratdılar və parlamentdə iştirak üçün M. Ə. Rəsulzadəyə müraciət etdilər. Nəticədə AXC parlamentində 5 deputat yeri bu cəmiyyət üçün ayrılmışdır. Azərbaycanda yaşayan rus əhalinin təzyiqini nəzərə alan Rus Milli şurası da 1919-cu ilin yanvarında parlamentə qatılmaq məcburiyyətində qalmışdır. Qeyd edək ki, rus və erməni şuraları müttəfiq qoşunların Bakıdakı komandanı general Tomsonla görüşərək parlamentin açılmasına bacardıqları qədər mane olmağa çalışırdılar. Təsadüfi deyil ki, parlamentin açılışı dekabrın 3-ə planlaşdırılsa da, dekabrın 7-də mümkün olmuşdur.

B.Britaniya baş qərargah rəisi S. Stoks mayor Rolansa göndərdiyi məktubda tələb edirdi ki, koalision hökumət müttəfiqlər tərəfindən tanına kimi parlament iclasıının açılması qadağan edilsin. Lakin AXC hökuməti qətiyyətlə Müəssisələr Məclisi çağırılana kimi parlamenti və AXC hökumətinin fəaliyyətini hüquqi və faktiki baxımdan əsaslandırmış oldu. Nəticədə Tomson Xoyskinin rəhbərlik etdiyi hökumətə etimad göstərmək məcburiyyətində qaldı. Belə ki, Tomson Xoyski ilə görüşü barədə Londona göndərdiyi məktubda yazırdı: "O, ağıllı adamdır, hüquqşünasdır və öz bacarığı ilə Qafqazda bizə məlum olan bütün əvvəlki dövlət quranlardan daha qabil olan dövlət qurumu yaratmışdır".

Xoyskinin Tomsonla gedən müzakirələri zamanı o, hökumətin parlament yolu ilə təşkilini əsaslandırmış və nəticədə Tomson AXC-nin daxili işlərinə qarışmayacağını bildirmişdir. Beləliklə, 1918-ci ilin dekabrın 7-də H.Z. Tağıyevin qızlar məktəbinin binasında AXC parlamenti ilk iclasını keçirərək fəaliyyətə başladı. Parlamentdə 120 nəfər deputatın iştirakınəzərdə tutulsa da 96

nəfərlə ilk işinə başlamış oldu. Yeni formalaşdırılacaq parlament ölkə əhalisinin hər 24 min nəfərinə 1 nəfər nümayəndə nəzərdə tutulurdu. Lakin sayları 24 mindən az olan milli azlıqlar da Cümhuriyyət parlamentində təmsil olunmuşdur. Milli Şuranın 19 noyabr 1918-ci il tarixli iclasının qərarına əsasən, 1917-ci ilin sonlarında Ümumrusiya Müəssislər Məclisinə seçilmiş 44 nəfər türk-müsəlman nümayəndə də birbaşa yeni yaradılacaq parlamentin tərkibinə daxil edilmişdir.
Nəticədə nəzərdə tutulmuş 120 deputat içərisində 80 yer müsəlmanlara, 21 yer ermənilərə, 10 yer ruslara verilmiş, digər Azərbaycanda yaşayan xalqların nümayəndələri də parlamentdə təmsil olunmuşdur. Rus, erməni, gürcülərlə yanaşı sayca azlıq təşkil edən millətlərin nümayəndələri də - polyak, alman, yəhudi və ukraynalının hərəsindən bir nəfər olmaqla Cümhuriyyət parlamentində iştirak etmişdilər. Milli azlıqların nümayəndələri – polyak Stanislav Vonsoviç, ukraynalı Vasim Kujim, alman Lorens Yakovlev Kun və yəhudi Moisey Quxman parlamentdə Milli azlıqlar fraksiyasında birləşmişlər.

Milli azlıq fraksiyasına daxil olan deputatlardan biri də alman xalqını təmsil edən Lorens Yakovlev Kun idi. O, 1884-cü ildə Yelenendorfda anadan olmuşdu. L.Y. Kun 1915-ci ildə Benkendorfun neft mədənlərinin idarə edicisi və Yelenendorf Beynəlxalq Alman komitəsinin üzvü olmuşdur. Parlamentdə aqrar komissiyanın üzvü olan Kun aqrar qanunvericiliyin müzakirəsində iştirak etmişdir. Bu dövrdə koloniyalar barəsində Azərbaycan hökumətinin siyasətini almanlar razılıqla qarşılayırdılar. Belə ki, sürgünə göndərilmiş alman ailələri Azərbaycana, doğma evlərinə geri qaytarılırdı.

Yelenendorfda kənd komitəsinin sədri parlament deputatının qardaşı – Robert Kun, onun köməkçisi isə Frisi Fridrix Kox idi. Kənd idarəsi ilə hökumət arasında mərkəzi hakimiyyətin nümayəndələri tərəfindən sıx əlaqələr qurulurdu. Azərbaycan hökuməti Alman milli komitəsinin təhsil, mədəniyyət və din sahəsində fəaliyyətini dəstəkləyirdi. Bir çox Alman ziyalılarının nümayəndələri azərbaycanlı həmkarları ilə birgə ali məktəblər, neft sənayesi və tibb sahəsinin təşkilində yaxından iştirak edirdilər.

1919-cu ildə Kimmerlin başçılığı ilə bir qrup bolşevik almanlar hökumətə qarşı çıxışlar etmiş, təxribat törətməyə cəhd etmişdilər. Bu barədə Robert Kun Əkisinqilabla Mübarizə Təşkilatının sədr müavini Mahmud Səfikürdskiyə məlumat verərək baş vermiş pozuculuq cəhdlərinin və almanlar arasında anarxiya yaradan Kimmerə qarşı mübarizədə kömək istəmişdir. Bu zaman AXC Zəngəzurda ermənilərin hücumlarına qarşı mübarizə apardıqları halda almanlara da bacardığı qədər kömək etməyə çalışmışdır.

9 iyun 1919-cu ildə almanlar Gəncə qubernatorunun razılığı ilə Yelenendorf koloniyasının əsasının qoyulmasının yüzilliyini təntənəli surətdə qeyd etmişlər. Bu yubiley münasibəti ilə Robert Yakov Kuna parlament adından təbrik teleqramı göndərilmişdir: "Azərbaycan Respublikasının parlamenti Yelenendorf koloniyasının yüzilliyini təbrik edir və alman xalqına tərəqqi, rifah arzu edir”. Yubileyin qeyd olunması haqqında sənədli film çəkilmiş, almanların köçürülmə tarixi barədə tədqiqatlar aparılaraq, broşuralar çap edilmişdir. Bəzi məlumatlara görə bu film Sovet hakimiyyətinin ilk illərində kənd arxivlərindən çıxarılaraq Almaniyaya aparılmışdır. Alman tədqiqatçısı Georq Leybrandta görə, Cümhuriyyət dövründə Azərbaycandakı almanların tarixinə həsr olunmuş kitab çıxarılması da nəzərdə tutulmuş və bunun üçün materiallar da toplanmışdır. Lakin sovet işğalı bu işin yarımçıq qoyulmasına səbəb olmuşdur. AXC hökuməti ərazisində yaşayan xalqların milli rifahı üçün onların mədəniyyətinin, təhsilinin inkişafına, ictimai birliklərinin yaradılmasına şərait yaradırdı. Lorens Yakovlev Kun Azərbaycan almanları adından çıxış edərkən bu barədə qeyd edirdi: “Biz almanlar AXC demokratikliyi sayəsində öz milliliyimizi qoruyub saxlaya bilirik və gələcəyə ümidlə baxırıq”. L. Y. Kun 1938-ci ildə SSRİ XDİK tərəfindən həbs edilmiş və 1942-ci ildə sürgündə vəfat etmişdir.

AXC parlamentindəki Milli azlıq fraksiyasının üzvlərindən biri də ukraynalı nümayəndə Vasil Nikolayeviç Kujim idi. O, 1884-cü ildə Poltava ərazisindəki Lubni şəhərində anadan olmuşdur. XIX-XX əsrin əvvəllərində mövcud olmuş qromadaçılardan idi. Qromadalar da bəhs etdiyimiz dövrdə milli-azadlıq hərəkatına xidmət məqsədilə yaradılmışdı. 1918-ci ildə Bakıda olan

V. Kujim buradakı Ukrayna milli komitəsinin üzvü idi və öz həmyerlilərinə maddi və mənəvi köməklik göstərirdi. Malyariya epidemiyası zamanı o, Amerika Yardım komitəsi vasitəsilə dərmanlar əldə etmiş və bununla da minlərlə ukraynalının həyatını xilas etmişdi.

AXC parlamentində fəaliyyətə başladıqdan sonra burada yaşayan ukraynalılara daha çox köməklik göstərmək və onların problemlərini rəsmi şəkildə bəyan etmək hüququ əldə etmiş oldu. Eyni zamanda V. Kujim rəsmi Ukrayna rəhbərliyi ilə AXC hökuməti arasında diplomatik əlaqələrin qurulmasında müsbət rol oynadı. Ukrayna qromadaçılarından olan və fövqaladə misisiyasının rəhbəri İvan Kraçkovski ilə AXC Xarici İşlər nazirliyinin arasında V. Kujimin təşkilatçılığı ilə danışıqlar olmuş və 1920-ci il yanvarın 1-də Bakıda Ukrayna konsulluğunun açılması barədə razılıq əldə edilmişdir. Həmin ilin mart ayından V. Kujim Ukraynaya rəsmi səfərə getmiş, lakin aprel işğalı səbəbi ilə Azərbaycana qayıtmamışdır. Praqa və Berlində müxtəlif qəzet və jurnallarda çalışmış, 1958-ci ildə Bavariyada vəfat etmişdir.

Fevral inqilabından sonra Rusiya imperiyasının tərkibinə daxil olan xalqların təşkilatlanması daha da sürətlənmişdi. Bunlardan biri də Azərbaycanda yaşayan yəhudilərin 3 dekabr 1917-ci ildə yaratdığı "Bakı Yəhudi milli komitəsi" idi. Komitənin sədri Moisey Arkadyeviç Quxman idi. Bütün mədəni - maarif və xeyriyyə müəssisələri bu milli komitənin tabeliyində olmuşdur. Həmin komitə fraksiyaya namizəd kimi bunları təqdim etmişdilər: sionistlər, bundçular, partiyasız demokratik qrup, xalqçılıq (folksparti), yəhudi sosial-demokratları (Poaley Sion), millətçi sionistlər (Siere-Sion)  və ortodoks fraksiyaları. Azərbaycan parlamentində həmin Quxman milli azlıq fraksiyasında öz millətini təmsil etmişdi. Bundçular isə Blumşteynin rəhbərliyi ilə parlamentdə təmsil olundular. M.A. Quxmanın parlamentdə milli azlıq fraksiyasına deputat seçilməsindən sonra yəhudi milləti ictimai sahələrdə daha aktiv şəkildə fəaliyyət göstərməyə, öz adət-ənənələrini, mədəniyyətlərini təmsil etməyə başladılar. Belə ki, Leon Peres adına yəhudi cəmiyyəti mövcud idi ki, bu cəmiyyətin 1919-cu ildə “Canlı” qəzetinin nəşrinə başlandı. Eləcə də Yəhudi xalq musiqi cəmiyyətinin Bakı bölməsi, Yəhudi xalq klubu olan “Qerslya”, Yəhudi xeyriyyə cəmiyyəti - "Ezras Axim" formalaşdırıldı. Bu cəmiyyət Q.O.Benenson cəmiyyətinə verilmiş yəhudi əlillər evinin salınmasını həyata keçirdi. Yəhudilərin qeyd edilən cəmiyyət və qurumları ingilis komandanlığının və xüsusi şəxslərin himayəsindən alınaraq özlərinin ixtiyarına verilmişdi. Bundan başqa, Bakıda növbəti qəzet və jurnallar çıxarılırdı: İ.Y.Qlaxenhauzun redaktorluğu ilə “Bakı sözü” qəzeti, “Qafqaz voxenblatı” jurnalı, Y.S.Fridlandın redaktorluğu ilə "Yəhudi iradəsi", V.S.Veynşal redaktorluğu ilə  "Fələstin", "Qafqaz yəhudi xəbərləri" nəşr edilmişdir. Sırf yəhudi təşkilatları və dövri nəşrləri ilə yanaşı, yəhudi icmasının nümayəndələri paytaxtın bir sıra ictimai təşkilatlarında da fəal iştirak etmişlər. Onların arasında "Bakı şəhər mərkəzi ev komitəsi" (Центродом) də var idi.

AXC parlamentində milli azlıq fraksiyasının üzvlərindən biri də polyak xalqını təmsil edən Stanislav Aleksandroviç Vonsoviç idi. O, parlamentdə Qanunvericilik komissiyasının katibi kimi fəaliyyət göstərmişdir. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətində PR-20193 saylı istintaq işindən məlum olur ki, S. Vonsoviç 1920-ci il avqustun 14-də həbs edilmiş, həmin ilin dekabrında həbsdən azad edilmişdir. Polyakların Cümhuriyyət parlamementində təmsil olunması ilə polyak xalqı ilə azərbaycanlılar və rəsmi Azərbaycan hökuməti arasında əlaqələr güclənməklə bərabər, onların Azərbaycanda rəsmi təmsil oluunmaq hüququ təmin edilmiş oldu. Bu da onlara öz problemlərini rəsmi tribunadan ifadə etmək şansı vermiş oldu.

Bu fraksiyanın üzvləri qeyd etdiyimiz millətin nümayəndələrindən təşkil olunsa da, parlamentin tərkibinə daxil olan digər fraksiyalardan sonradan üç nəfər deputat daxil olmuşdur. Bu deputatlar: Dubrovski, Vladimir Ollonqren və S. M. Mixaylov idi. Bu deputatlardan biri Vladimir Konstantin Ollonqren əvvəlcə Slavyan-rus cəmiyyəti fraksiyasına daxil olmuş, sonradan Milli azlıqlar fraksiyasına keçmişdir. II Nikolayın yaxın dostu olan Vladimir Ollonqren 1916-1917-ci illərdə Bakı şəhər idarə rəisinin müavini vəzifəsində çalışmış, Slavyan-rus cəmiyyətinin üzvü kimi 1918-ci ilin dekabrında parlamentin tərkibinə qatılmışdır. 1919-cu ildən V.Ollonqren Milli azlıqlar fraksiyasına daxil olmuşdur.

Milli azlıqlar fraksiyasına daxil olan deputatlar sonrakı hökumət kabinetlərinin işində də aktiv iştirak etmişdilər. Cümhuriyyət hökuməti demokratik dəyərləri rəhbər tutaraq, parlamentdə təmsil olunan millətlərin nümayəndələrini hökumət işlərindən uzaqda saxlamamış, əksinə, daha aktiv və zəruri məsələlərin həlli və həyata keçirilməsi işlərinə cəlb etmişdir. Buna misal olaraq, parlamentdə fəaliyyət göstərən "Maliyyə komissiyasında" yəhudilərdən Quxman, "Fəhlə komissiyası"nın işində gürcü nümayəndəsi Tsixakaya, Məclisi-müəssisan hazırlığı komissiyasının işində isə polyak nümayəndəsi Vonsoviçin iştirakını göstərə bilərik. Xalq səhiyyə naziri Yevsey Gindes, ərzaq naziri Konstantin Lizqar, maliyyə nazirinin müavini və dövlət bankını idarə edən M. Abezhauz etnik mənsubiyyətinə görə yəhudi idilər, bu, Cümhuriyyətin vətəndaşı kimi siyasi hüquqlara sahib və bu hüquqlardan geniş istifadə edərək hökumətin işində fəaliyyət göstərmələrinə mane olmurdu. Müqayisə üçün qeyd edək ki, dünyanın inkişaf etmiş, daha uzun ömürlü və təkmil siyasi sistemlərinə malik dövlətlərində antisemitizm tüğyan edir, yəhudilər etnik mənsubiyyətinə görə sıxışdırılırdı. Azərbaycanda isə vəziyyət əksinə idi. AXC yeni və çətin tarixi-siyasi şəraitdə yaransa da, vətəndaşlarının hüquq və azadlıqlarını təmin etməyi bacarmışdı.

Parlementin Milli azlıqlar fraksiyasında almanları təmsil edən L. Y. Kun aqrar komissiyanın üzvü kimi qanunvericilik layihələrinin hazırlanmasında və müzakirəsində yaxından iştirak etmişdir.

Polyakları AXC parlamentində təmsil edən S. Vonsoviç Qanunvericilik komissiyasının katibi kimi fəaliyyət göstərmişdir. Bundan başqa, o, parlamentdəki seçki və nizamnamə komissiyalarının tərkibində də çalışmışdır. Parlamentin S. Vonsoviçdən başqa da polyak üzvü var idi. Bu, parlamentdəki digər Slavyan-rus cəmiyyıti fraksiyasının tərkibinə daxil olan Viktor Klenevski idi. O, V hökumət kabinetində Sosial təminat naziri kimi fəaliyyət göstərmişdir.

Azərbaycan hökuməti tədris işini milliləşdirərkən azsaylı xalqların uşaqlarının da mənafeyini nəzərə almışdı. Hökumətin 1918-ci il 7 sentyabr tarixli qərarı ilə sinifdə başqa millətdən olan şagirdlərin sayı 10 nəfərdən az olmadıqda onlara öz dillərində ilahiyyat və ana dili dərsləri keçilməli idi. Bu da Azərbaycan vətəndaşı olan hər bir şəxsin vətəndaş kimi hüquq və azadlıqlarının təmin edilməsini, onların öz mədəniyyətlərini qoruyub-saxlamalarına hüquqi baxımdan şərait yaradıldığının bir sübutudur. Halbuki, dünyanın inkişaf etmiş və əvvəllər parlament təcrübəsinə malik olmuş, demokratik dəyərlərin Azərbaycandan da tez formalaşdırıldığı dövlətlərdə milli azlıqlarla olan problemlər hal-hazırda da qalmaqdadır. Azərbaycan Respublikası da Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi bu ənənəyə sadiq qalaraq, öz vətəndaşlarına irqindən, milliyyətindən, dinindən, sosial mövqeyindən asılı olmayaraq bərabər hüquqlarını təmin edir. "İstiqlal bəyannaməsi"ndə qeyd olunan bu müddəa bu gün də müstəqil Azərbaycan Respublikasının qanunvericiliyində öz əksini tapmışdır. Belə ki, Cümhuriyyətin təsisat aktı olan "İstiqlal bəyannaməsi"nin müddəalarında qeyd edilir ki, Azərbaycan Xalq Cümhuriyyəti silkindən, cinsindən, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarının siyasi hüquqlarının təminatçısıdır (IV maddə). Həmçinin, bu tarixi-siyasi və hüquqi əhəmiyyətinə görə seçilən sənəddə vurğulanır ki, AXC ərazisində yaşayan bütün millətlərə sərbəst inkişafları üçün geniş şərait yaradır (V maddə). AXC-nin fəaliyyətinə diqqət yetirdikdə, AXC hökumətinin bu müddəaları tətbiq etdiyinin şahidi oluruq.

I Dünya müharibəsi başa çatandan sonra dünyanın bir çox yerlərində demokratik ideyalar praktiki olaraq həyata keçirilməyə başlayır. Parlament təcrübəsinə malik olan dövlətlərdə demokratikləşmə yeni mahiyyət kəsb edir. Bu yolda fərqli inkişafa doğru yeni addımlar atılır. Məsələn İngiltərə parlamentində qadınlara seçki hüququnun verilməsi kimi addımları nümunə göstərə bilərik. Halbuki, tarixə nəzər salsaq, İngiltərədə parlament 1265-ci ildən formalaşmışdır. Azərbaycan isə bu vaxta qədər parlament təcrübəsinə malik deyildi və ilk dəfə yaradılmış Cümhuriyyət parlamentində demokratik prinsiplər zəmin olmuşdur. Parlamentin yaradılması ilə bağlı verilən qərarlardan biri də qadınların da kişilərlə bərabər seçki hüququna sahib olması idi. "İstiqlal bəyannaməsi"ndə qeyd etdiyi kimi, milliyyətindən, dinindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına bərabər hüquqlar vəd edir və bunu praktiki olaraq həyata keçirirdi. Nümunə üçün qeyd edək ki, qadınlara seçki

| | |
|---|---|
| | hüququ Fransada 1944-cü ildə, İsveçrədə isə praktiki olaraq 1989-cu ildə baş tutmuşdur. Qeyd edək ki, Cümhuriyyət parlamentinə seçki ilə bağlı qadınlara bu hüququn verilməsi və hüququi baxımdan tanınması nəinki Azərbaycanda, Şərqdə və türk-müsəlman dünyasında ilk dəfə olaraq həyata keçirilmişdir.<br>Dövrün tarixinə nəzər salsaq, məlum olur ki, dünyanın əksər bölgəsində demokratik təsisatların olmadığı, insan hüquq və azadlıqlarının mövcud olduğu, Birinci Dünya müharibəsindən sonra ksenofobiya, antisemitizmin geniş vüsət aldığı bir vaxtda AXC demokratik dəyərlərə sadiq qalmış, bütün addımlarını da məhz bu prinsiplər üzərindən həyata keçirmişdir. AXC parlamentinin tərkibi bunu bir daha sübuta yetirir.<br>Yuxarıda qeyd olunanları nəzərə alaraq, deyə bilərik ki, AXC yarandığı gündən həm hüquqi, həm də faktiki olaraq öz ərazisində yaşayan bütün millətlərə tolerant yanaşmış, onların bərabər hüquq və azadlıqlarla təmin etmişdir. Bu gün də müstəqil Azərbaycan Respublikası da bu ənənəyə sadiq qalır. Azərbaycan ərazisində müxtəlif millətlərin və ölkələrin həm rəsmi diplomatik orqanları həm də mədəni qurumları fəaliyyəst göstərməkdədirlər. Müasir dövrdə beynəlxalq aləmə nəzər yetirsək, dünyanın bir sıra ölkələrində terror, milli və dini fərqlərə görə anlaşılmazlıqlar baş verdiyi halda, AXC-nin varisi olan Azərbaycan Respublikası demokratik ənənələrə sadiq qalaraq, hüquqi və faktiki baxımdan ərazisində yaşayan bütün vətəndaşlara və qeyri-azərbaycanlılara din, dil, cins, milliyət, sinif fərqi qoymadan eyni hüquq və azadlıqlar vermişdir. |
| **2** | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | 100% |
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | Dünyanın bir çoxsiyasi və hüquqi təşkilatlarının, insan hüquqları üzrə doktrinaların mövcud olmadığı bir zamanda AXC vətəndaşlarına hüquq bərabərliyini təmin etməyi bacarmışdır. Bu gün dünyada dünyanın inkişaf etmiş demokratik dövlətlərində milli azlıqların hüquqlarının pozulduğu, irqçiliyin,dini ekstremizmin müşahidə olunduğu bir zamanda Azərbaycan Respublikası AXC-nin milli varisi kimi demokratik ənənələrə sadiq qalır. Cümhuriyyətimiz 23 ay yaşadığı müddət ərzində demokratik ənənələrə sadiq qalaraq mütərəqqi addımlar atmışdır ki, bu gün də dünyada nümunə hesab edilməlidir.<br>AXC parlamentində milli azlıqların təmsil olunması Cümhuriyyət hökumətinin və onun qanunverici orqanının demokratik prinsiplər üzərində qurulduğunu bir daha sübut edir. Bu da bir dövlət ərazisində yaşayan müxtəlif irqə, dinə, millətə məxsus olan vətəndaşların bərabərhüquqlu yaşamalarının, dövlətin siyasətində də bu tolerantlığın gözlənilməsinin aktuallığı baxımından bu gün də öz əhəmiyyətini saxlamaqdadır. Elmi yenilik ondan ibarətdir ki, ilk dəfə mövzu bütöv şəkildə araşdırılmışdır. Belə ki, Cümhuriyyətlə bağlı bir çox tədqiqat əsərləri olsa da, Milli azlıqlar fraksiyası problematik olaraq araşdırılmamışdır. Odur ki, tariximizin şanlı səhifəsini təşkil edən Cümhuriyyətimizin demokratik dəyərlərin əsasını qoyan bir dövlət quruculuğunu öyrənmək, düzgün tədqiq edib tanıtmaq bu gün də aktual məsələlərdən biridir. Çünki AXC hökuməti yalnız Şərqin və türk-müsəlman dünyasının deyil, dünyanın demokratik prinsiplərlə formalaşıb fəaliyyət göstərən dövlətlərindən biri olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti çətin tarixi-siyasi şəraitdə yaransa da, demokratik prinsiplər üzərində qurulmuş, insan hüquq və azadlıqlarının qorunması və təmin edilməsi ilə bağlı bütün demokratik normaları tətbiq etmişdir.<br>Layihə nəticəsində əldə edilən fakt və materiallar AXC tarixinin araşdırılmasında, bu səpkidə bir sıra elmi əsərlərin yazılmasında, müxtəlif təhsil və elm mərkəzlərində mühazirə, çıxışlarda istifadə oluna bilər. Eyni zamanda, parlament tarixinin öyrənilməsində də tətbiq oluna bilər. Bundan başqa, AXC parlamentinin demokratik prinsiplər üzərində qurulması demokratik dəyərlərin təbliği nöqteyinəzərindən nümunə ola bilər. Demokratik təsisatlar və parlament idarəçiliyi baxımından |

| | |
|---|---|
| | konsepsiya və layihələrin hazırlanmasında istifadə oluna bilər. |
| 4 | Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)* |
| | "Representation of National Minorities in the Parliament of the Azerbaijan Democratic Republic" (Scientific Collection «InterConf», (76):with the Proceedings of the 1 st International Scientific and Practical Conference «Progressive Science and Achievements» (September 26-28, 2021). Doha, Qatar)<br>"The Pearl of democracy of the East - Parliament of the Azerbaijan Democratic Republic" (III International Scientific and Practical Conference concepts for the development of society`s scientific potential held on May 19-20.2022 in Prague) (çapdadır)<br>"Parliament of the multinational Azerbaijan Democratic Republic" (çapdadır) |
| 5 | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | |
| 6 | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | |
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)*<br>Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun ADA universitetinin əməkdaşları üçün təşkil etdiyi tədbirdə iştirak (avqust, 2021) |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | *(burada doldurmalı)*<br>1 st International Scientific and Practical Conference «Progressive Science and Achievements» (September 26-28, 2021). Doha, Qatar)<br>III International Scientific and Practical Conference concepts for the development of society`s scientific potential held on May 19-20.2022 in Prague |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | Tarix elmləri doktoru Anar İskəndərli, tarix üzrə fəlsəfə doktoru Sevinc Qasımova, tarix üzrə fəlsəfə doktoru Sevda Hüseynova, tarix elmləri doktoru Sevda Süleymanova, tarix üzrə fəlsəfə doktoru Samir İsmayılov, tarix üzrə fəlsəfə doktoru Aynurə Məmmədova, tarix elmləri doktoru Tahir Baxşəliyev, tarix üzrə fəlsəfə doktoru Nurlan Abbasov ilə müəyyən fikir mübadiləsi və məsləhətləşmələr aparılmışdır. |
| 12 | Xarici həmkarlarla əlaqələr |
| | |

| | |
|---|---|
| **13** | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | |
| **14** | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | |
| **15** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | |
| **16** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |
| | |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**
**Quliyeva Mülayim Sahib qızı**

___________________
*(imza)*
" __" ________ 20_-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
**İsmayılova Aygün Vilayət qızı**

_________________
*(imza)*
" __" ________ 20_-ci il